Firuz Mustafa
Əməkdar İncəsənət xadimi, Cəfər Cabbarlı və Humay mükafatları laureatı

Rus dilindəki bəzi sözlərin mənşəyi haqqında

...söz haqqında söz... *(fraqmentlər)*

Dilimizin zənginliyinə heç bir şübhə yoxdur.

Ən mürəkkəb mətni belə, dilimizə yüksək səviyyədə tərcümə etmək mümkündür.

Belə bir informasiya var ki, dilimizdə yüz iyirmi mindən artıq söz var.

Elə rus dili də zəngindir. Rəsmi məlumata əsaslanıb desək, rus dilində iki yüz min söz var.

İngilis dili daha zəngindir, bu dildə təxminən iki milyon sözün olduğu deyilir.

Çin dilində neçə söz olduğu dəqiq məlum olmasa da, əlli min heroqlifin olduğu bəllidir.

Elə yapon dilində də vəziyyət təxminən bu cürdür, yəni əlli min heroqlifin olduğu iddia edilir.

Bir dilin o birindən söz "alması" təbii və adi bir haldır.

Məsələn, məndə olan məlumata görə, rus dilində on mindən çox türkizm var. Bizim dilimizdə də kifayət qədər ərəb-fars mənşəli söz vardır.

Bütün bunlar öz yerində...

Bəziləri rus dilində türk mənşəli sözlərin bolluğunu nəzərdə tutaraq, bu iki dilin kökən eyni olduğunu yazır. Bu, əlbəttə, diletant yanaşmadır. Hansısa dilin lüğət tərkibində əcnəbi sözlərin çoxluğu heç də onların bir-birindən "əmələ gəldiyini" deməyə əsas vermir. Ona qalmış türkcədə də kifayət qədər ərəb və fars sözləri vardır. Amma türk və ərəb, yaxud rus və türk dilləri tamamilə fərqli dil qrupu və dil ailələrinə mənsubdur. İş orasındadır ki, tarixi və coğrafi şərait dillərin birbiri ilə söz "alış-verişinə" daim təkan vermiş, əsaslı rol oynamışdır. Bu mənada hər bir dil kimi rus dili də digər dillərin təsiri nəticəsində zənginləşmişdir. Elə söhbət də bu məsələ haqqındadır.

Mən daim elmi və ədəbi dillə məşğul olan bir adam kimi deyə bilərəm ki, dillər bir- birindən çox "qidalanır". Bu qarşılıqlı ünsiyyət olmadan heç bir dil inkişaf edə bilməz.

Amma hər bir dildə "boş xanalar" olur. Həmin "xanalar" istəritəməz ya götürmə sözlərlə, ya da yeni yaranan sözlərlə "doldurulmalıdır". Məsələn, qardaş türkiyədə bu praktika geniş tətbiq olunub.

Bizim dilimizdə də bəzi sözlərin yerini "doldurmaq" zərurəti üzə çıxmaqdadır. Məsələn, tez-tez işlədilən "uje" sözü, məncə, qaçılmazlıqdan yaranıb, çünki "artıq" sözü bu "uje"ni tam əvəz edə bilmir. Yox, mən demirəm ki, dilimizə "uje" leksemi gəlsin. Qətiyyən. Sadəcə, müvafiq sözləri tapıb "boş xanalara" gətirmək lazımdır.

Mən bu qəbildən olan cəmi bir sözü nümunə gətirdim, qalanını da siz özünüz deyin.

Biri yazır: "...biri yazıb ki, dilçilərimiz bir "sosiska"ya ad tapa bilmirlər".

Dilimizdə əcnəbi sözlərin yer alaması zaman-zaman mübahisə doğurub və arabir bu məsələyə mən də öz münasibətimi bildirmişəm.

İndiki halda mən həmin sualı verən insana belə bir sualla "cavab" verərdim: Bəs niyə rus dilçiləri bir "kolbasa"ya ad tapa bilmirlər və indiyəcən bu türk mənşəli sözdən istifadə edirlər?"

p.s. Qısası, hər bir dil öz stixiyası ilə irəliləyərək öz ömrünü yaşamaqdadır.

İndi isə bu gün rus dilində işlədilən bəzi sözlərin mənşəyinə nəzər salaq. Orasını da qeyd edim ki, bəzi mətləblərin izahı bir çox hallarda rus dilində verilir. Bu, ona görədir ki, vicdanına sadiq qalan klassik rus tədqiqatçılarının bizim bəzi çağdaş "türkçülərdən" daha artıq "türkçü" olduğunu qoy bilməyənlər də bilsinlər və özləri üçün nəticə çıxarsınlar.

SOBAKA(köpək). Köpək. Bu söz də türk mənşəlidir.

Rus dilçilərinin tədqiqatları göstərir ki, "sobaka" sözünün mənşəyi türkcədir. Belə ki, türkcədəki "kopək" sözü azacıq təhriflə (k/s əvəzlənməsi ilə) rus dilinə keçib.

Большинство лингвистов склоняются к заимствованию слова из тюркских языков, где собаку называют «кобяк» (кюб?к).

ŞTAN(içdon). Rus dilçiləri bu sözün türk mənşəli olduğunu qeyd edirlər. "Ştan" (içdon") sözü rus dilində "bryuk" (şalvar) sözündən daha əvvəl qəbul olunub.

Этимология появилось в русском языке гораздо раньше, чем слово «брюки». Слово «штаны» имеет тюркское происхождение (ыштан, и?тон). В тюркских языках это слово означает кальсоны или подштанники.

ALKOQOL(alkoqol). Ərəb mənşəli sözdür. Bu sözü türkizm də hesab edənlər var. Belə ki, bir çox dillərə rus dilçilərinin dediyi kimi təkcə portuqalların hesabına yox, türk dili vasitəsi ilə keçib.

Слово алкоголь попало в европейские языки из арабского благодаря португальским алхимикам. Арабское ал-кул— сочетание определенного артикля ал- со словом кул, означавшим порошок металла сурьмы.

ALQEBRA(cəbr) ərəb mənşəli sözdür. İfadənin müəllifi Əl-Xorezmidir.

Bu termin rus və avropa dillərinin əksəriyyətində geniş istifadə olunur. Существительное «алгебра» происходит от арабского слова «аль джебр», означающего «воссоединение сломанных частей», которое появилось в названии знаменитой книги математика аль-Хорезми об уравнениях.

ARBUZ(qarpız). Bu, türk mənşəli sözdür.

Rus dilindəki "arbuz" (qarpız) türk kökənli sözdür. Rus dilçiləri də bunu vurğulayır. Arbuz, daha doğrusu qarpız sözü "qar" və "buz" sözlərinin birləşməsindən yaranıb.

Русское название "арбуз" получил от тюркского слова "?арбуз/карпуз".

KNİQA (kitab). Bu sözün mənşəyi haqda fikirlər müxtəlifdir. Onu çin mənşəli hesab edənlər də var, türk mənşəli olduğunu isbat edənlər də. Amma əksər dil mütəxəssisləri onu türkizm hesab edirlər. Uyqur dilində bu söz "kuinbitik" kimi ifadə olunur. Ümumiyyətlə, qədim türklər kitaba "bitik" deyirdilər.

Наиболее вероятные версии происхождения праславянского слова кънизе: восходит от древне-тюркско *кциниэ, уйгурское куин, кунбити....

Şatyor (çadır). Bu, türkizmə aid sözlərdən biridir. Bir çox tədqiqatçılar belə hesab edirlər ki, söz fars mənşəlidir, "catr" sözündən götürülüb. Amma biz onun türkcə "çatı(lmaq)" sözündən götürüldüyünü ehtimal edirik.

Слово, распространившееся в ряде славянских языков (в т.ч. в русском, сербском, болгарском, польском, словенском).

Karaul(qaraul). Əslindəbu bu söz türkcə "qara qul" sözündən götürülüb. Gözətçi mənasındadır.

В самих же тюркских языках «караул» имел значение «дозор» или «стража».

Denqi(təngə). Türkcü "dəngə", "tanqa" sözündən yaranıb. İndi bu sözü ruslar "denqi" kimi işlədir. Qazax dilində isə "tenge" ifadəsi halhazırda pul mənasında saxlanılmaqdadır.

Слово «деньга» в тюркских языках означало любую монету, сделанную из серебра — оно перекочевало в ХЫВ веке к нам в схожем значении.

Xozyain(xoca). Xozəin. Fars mənşəli türkizmdır. Belə ki, rus dilində geniş işlədilən "xozyain" leksemi "xoca" sözündən götürülüb.

История слова берет свое начало именно в период нашествия татаро-монгол. Изначально появилось в персидском языке («ходжа» — господин), откуда и перекочевало в тюркские наречия.

Kolçan(kolçan). Daha çox Rusiyada hərbi sferada işlədilən «kolçan» sözü öz balanğıcını türk (tatar dilindəki kolcan, kulcan –sözlərindən götürülüb.

Neft. Fars mənşəli türkizm. Mənası- nəm, maye.

В русский язык слово пришло из турецкого "нефт", куда оно попало из древнеперсидского "нафт", что означало "мокрый".

Orda(orda). Qədim türk dilində xanın qərargahı. Məsələn, "Qızıl Orda". "Orda" sonralar "ordu" mənasında işlədilib.

Palaç(palaç). Mənası pala, bıçaq. Cəllad (bıçaqçı) mənasında işlədilir.

Согласно этимологическому словарю Фасмера, русское слово «палач» происходит от турецкого пала — «меч, нож» (см. Килич; ср. палаш)).

Tamqa(tamğa). (damğa) Tamqa — Rus dilində işlədilən "tamojna" sözünün mənşəyi. Sözün əsasında "damğa" leksemi durur. Tamojnə- damğalı deməkdir.

В эпоху Алтын орды, караван нес собой тамгу хана, что давало беспрепятсвенный презд по всей территория орды, т.е. таможня дала добро.

Loşad(at). Rus dilçilərinin az qala hamısı bu sözün türk mənşəli olduğunu qəbul edir, amma bir çox hallarda onun izahını düzgün verə bilmirlər. Loş+at dilmizdə "tənbəl at" anlamında işlənsə də, mahiyyətcə at deməkdir.

Rus müəllifləri yazır: "Слово «лошадь» является тюркским по происхождению, изначально оно означало «мерин» и выглядело как "алаша".

Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, rus dilindəki əksər at cinslərinin və minik-qoşqu vasitələrinin əksəriyyətinin adı türkcədən götürülüb.

Məsələn:

AT CİNSLƏRİNİN ADLARI:
Loşad-loşad (alaşa)
Bulanıy-bulanıq, tutqun
Merin-mərin (axtalanmış at)
Karakovıy-qara rəngli
Çalıy-çalrəngli
Tarpan-tarpan
Tabun-tabun
Kobıla-kobıla, kısrak

MİNİK NÖVLƏRİ:
Çeprak-çeprak (göndən hazırlanmış məmulat)
Çember-çəmbər
Mundştuk- muştuq(alman kökənli türkizm)
Arçan-erçan
Arkan-arkan
Arba-araba
Teleqa-talika (taçka, daşqa)
Kazna-qazna
Kibitka-kibit (üstü örtülü)
Qozala-qozala

Bəli, bu siyahını yenə artırmaq olar.

Fakt budur ki, rus dilinin kökünə vardıqca, rus dilindəki sözlərin "tozunu" aldıqca, türk mənşəli sözlərin daha aydın şəkildə üzə çıxdığının şahidi oluruq.